# Azərbaycan Xəzər qazını Avropaya çatdırmaq kimi tarixi missiyanı da uğurla icra etdi

**Yaxın tezlikdə Avropanın enerji bazarında Azərbaycanın iştirakı ilə mühüm yeniliklərə start veriləcək. Söhbət Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində görülən işlərin artıq yekunlaşmaq üzrə olmasından gedir. Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd edir:**

"Sözsüz ki, enerji təhlükəsizliyi avropalı tərəfdaşlarla əməkdaşlığın ənənəvi mövzusudur. Biz bütün əsas transmilli enerji layihələrimizi uğurla həyata keçirmişik və çox tezliklə - bir neçə günə bizim təbii qaz fiziki olaraq artıq Avropa İttifaqının sərhədində olacaq. Bu, bir sıra ölkələr və həmçinin Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlıq sayəsində əldə olunmuş çox nəzərəçarpan nailiyyətdir".

Bu fonda qeyd edək ki, Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq layihənin də mühüm tərkib hissəsi olan TANAP boru kəmərinin ikinci fazası da noyabrın 30-da istifadəyə veriləcək. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki törəməsi - "SOCAR Turkey Enerji A.Ş."nin xarici əlaqələr üzrə direktoru Murat LeKompte isə bildirir ki, TANAP kəmərinin ikinci fazasının noyabrın 30-a planlaşdırılan açılış mərasimi üçün Türkiyənin Ədirnə şəhərinin İpsala qəsəbəsində son hazırlıqlar da başa çatıb. O bildirib ki, 1850 kilometr uzunluğunda olan TANAP Türkiyədə 20 şəhərdən və 67 qəsəbədən keçərək, ölkənin Şərqi ilə Qərbini bir-birinə bağlayır: "İki çıxış nöqtəsi olan boru kəmərinin ilk çıxışı Əskişəhərdə, ikinci çıxışı isə Ədirnə şərhədindədir. İndi isə boru kəmərinin ikinci, Avropaya qaz nəql etmək üçün nəzərdə tutulan hissəsi tamamlanıb və onun açılışını həyata keçirəcəyik. TANAP-ın illik ötürücülük gücü 16 milyard kubmetrdir. TANAP tam gücü ilə çalışdığı zaman bu göstəricinin 6 milyard kubmetri Türkiyə bazarına veriləcək, 10 milyard kubmetri isə hazırda olduğumuz bu yerdən Avropaya ixrac ediləcək. Bu, tarixi bir gündür. Tarixdə ilk dəfə Xəzər qazı, Azərbaycanın təbii qazı Avropaya nəql ediləcək".




Türkiyəli ekspert Ərdal Qaragöl də bildirir ki, Azərbaycanla Türkiyə arasında həyata keçirilən TANAP layihəsi və bütövlükdə enerji əməkdaşlığı, ikitərəfli uğurlu münasibətlər həm region ölkələri üçün, həm də enerji sərvətlərinə malik bütün ölkələr üçün nümunədir: "TANAP həm Türkiyənin enerji təhlükəsizliyinə, həm də Avropa enerji şəbəkəsinə qoşulmaqla Avropa İttifaqı ölkələrinə enerji daşıyıcılarının tədarükünü şaxələndirərək regionun enerji tarazlığına mühüm töhfə vermiş olur". O, Türkiyənin coğrafi mövqeyinə görə Azərbaycan üçün Avropaya enerji dəhlizi rolunu yerinə yetirdiyini deyib: "Türkiyənin coğrafi mövqeyini nəzərə alan Azərbaycan bu ölkə ərazisindən öz enerji sərvətlərini nəql etməklə düzgün qərar verərək, eyni zamanda öz enerji təhlükəsizliyini də təmin edib. Beləliklə, bu layihə sayəsində Azərbaycan region ölkələri ilə rəqabət aparmaq imkanı əldə edib. Digər tərəfdən, TAP və TANAP kimi layihələr vasitəsilə Türkiyə enerji habına çevrilmək, "enerji İpək Yolu" rolunu oynamaq məqsədinə bir addım da yaxınlaşır".

Türkiyəli ekspertin fikrincə, TANAP kəmərinin Türkiyənin, Yaxın Şərqin, Avropanın ən uzun və ən böyük diametrə malik boru kəməri olaraq tarixə düşməsi də böyük əhəmiyyət daşıyır: "Çoxşaxəli və səmərəli layihə olan TANAP Türkiyə ilə Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlıq üçün yeni-yeni imkanlar açacaq. İki ölkə arasında əməkdaşlıq, o cümlədən enerji sahəsindəki birgə layihələr bütövlükdə region üçün faydalıdır. Bu boru kəməri Xəzər hövzəsində zəngin enerji sərvətlərinə malik başqa ölkələr üçün də Avropaya pəncərə olacaq".

Beləliklə, hesab edilir ki, TANAP və onun davamı olan TAP enerji layihələri Azərbaycanla Türkiyənin regionda strateji əhəmiyyətini daha da artırır. Yeri gəlmişkən qeyd edək ki, Avropada da Azərbaycan qazının qəbuluna intensiv hazırlıq görülür. Artıq TAP kəməri də yekunlaşmaq üzrədir. Bundan başqa, Azərbaycan təbii qazını Bolqarıstana ötürəcək Yunanıstan-Bolqarıstan İnterkonnektoru layihəsinin də tezləşdirilib həyata keçirilməsi nəticəsində Bolqarıstan regionun enerji liderinə çevriləcək. Bolqarıstanın baş naziri Boyko Borisov bildirir ki, bu, ölkəsinin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayacaq. Qeyd edək ki, TAP-a qoşulacaq Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə Bolqarıstan Azərbaycandan ildə 1 milyard kubmetr təbii qaz idxal edəcək. Belə ki, "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından bu miqdarda qaz almaq üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Azərbaycan təbii qazı hesabına Bolqarıstan qaz tələbatının 25-30 faizini ödəyə biləcək. Bundan başqa, artıq bir sıra şərqi Avropa ölkələri də Azərbaycan qazına xüsusi maraq göstərməyə başlayıb. Eləcə də o da faktdır ki, indiki halda ümumilikdə "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində bütün Avropa üçün çox önəmli layihədir. Bu layihədə həm mənbələrin, həm də marşrutların şaxələndirilməsi baş tutur. Belə ki, Azərbaycan qazı Avropa üçün yeni mənbədir.

Bununla Avropanın enerji təhlükəsizliyi daha dolğun və tam şəkildə təmin ediləcək. "Cənub Qaz Dəhlizi" bu mənada Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, onu geoiqtisadi və geosiyasi məkanda daha güclü söz sahibinə çevirir. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin icrasında 7 ölkə, yəni Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Gələn il isə üç Balkan ölkəsi olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənir. Bununla enerji layihəsində iştirak edən ölkələrin sayı daha da artır.

***Nahid SALAYEV***